# Azərbaycanın və İranın elmi-tədqiqat mərkəzləri arasında əməkdaşlıq məsələləri müzakirə olunub

**Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev İranın Xarici Əlaqələr üzrə Strateji Şurasının sədri Kamal Xərrazi ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın İrandakı səfirliyi məlumat yayıb.

Bildirilib ki, görüşdə iki ölkənin elmi-tədqiqat mərkəzləri və ictimai-siyasi fikir daşıyıcıları arasında əməkdaşlıq və qarşılıqlı səfərlərin təşkili məsələləri vurğulanıb.



Azərbaycan.- 2025.- 4 fevral (№ 24).- S.4.